# Seçkilərə hazırlıq tam başa çatıb

**Müstəqillik tariximizdə ilk dəfə ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmiş Azərbaycanda fevralın 7-də prezident seçkiləri keçiriləcək. İşğalçılar tərəfindən bütün hüquqları pozulub yurdundan didərgin salınmış insanlar da ilk dəfə olaraq öz kəndlərində, illərlə həsrətində olduqları torpaqlarda seçki məntəqələrinə gedib müstəqil surətdə istədikləri namizədə səs verəcəklər. İşğaldan azad olunmuş Ağdərə, Kəlbəcər, Laçın, Şuşa, Ağdam, Füzuli, Qubadlı, Zəngilan, Cəbrayıl, Xocavənd, Xocalı və Xankəndidə vətəndaşlarımız öz seçki hüquqlarından istifadə edəcəklər.**



Artıq seçkilərə hazırlıq başa çatıb. Seçki prosesinin tam şəffaf və demokratik şəraitdə keçməsi üçün bütün seçki məntəqələri lazımi texniki vasitə və metodiki vəsaitlərlə, yanğın təhlükəsizliyi, fasiləsiz rabitə və elektrik enerjisi ilə təchiz olunub. Vətəndaşların seçimlərini sərbəst şəkildə etmələri üçün səsvermə kabinələri quraşdırılıb, məntəqələrə seçki qutuları və lazımi avadanlıqlar paylanılıb, seçici siyahıları və məlumat lövhələri asılıb. Seçki məntəqələrinə mürəkkəb və ultrabənövşəyi lampalar və digər zəruri vəsaitlər gətirilib. Katib və üzvlər, habelə seçkini izləyəcək müşahidəçilər üçün yerlər müəyyənləşdirilib. Seçkilərin şəffaflığının təmin edilməsində veb-kameraların quraşdırılmasının müstəsna əhəmiyyəti var.

Artıq 16 ildir ki, səsvermə günü seçki məntəqələrində prosesləri internet üzərindən hamı üçün açıq platformada canlı müşahidə etmək mümkündür. Seçki məntəqələrinə getmədən də gün ərzində əvvəldən-axıradək fasiləsiz müşahidə imkanı verən veb-kameralardan istifadə təcrübəsi prezident seçkilərində də davam etdiriləcək. Hazırda bütün ölkə coğrafiyasını əhatə edən 1000 seçki məntəqəsində veb-kameralar quraşdırılıb.

Çoxsaylı yerli və beynəlxalq müşahidəçilər, media mənsubları və müxtəlif aşkarlıq institutları seçki kampaniyasında heç bir maneə olmadan, azad və sərbəst şəkildə iştirak edə biləcəklər. Seçkilərdə bütün digər vasitələrlə yanaşı, informasiya-kommunikasiya texnologiyalarının ən son innovativ nailiyyətlərinin effektiv tətbiq olunması səsvermə günü seçki məntəqələrindəki prosesləri əvvəldən-axıradək fasiləsiz izləməyi, arası kəsilmədən, dolğun və əhatəli müşahidə aparmağı və beləliklə, şəffaflığın daha böyük miqyasda gerçəkləşdirilməsini tam təmin edəcək.

Səsvermə günü seçki məntəqələrində proseslərin birbaşa izlənilməsi, keyfiyyətli və fasiləsiz yayım imkanlarının təmin olunması üçün veb-kameraların tənzimlənməsi və digər texniki parametrlərin gücləndirilməsi diqqət mərkəzində saxlanılaraq daha da təkmilləşdirilib. Belə ki, veb-kameraların müşahidə sistemi tam yenilənərək yeni nəsil müşahidə sistemi tətbiq olunub və əvvəlki illərdəkindən 2 dəfə daha yüksək görüntü effektinə, optimal şəbəkə utilizasiyasına, avtofokuslama və s. kimi mühüm xüsusiyyətlərə malik kameralar quraşdırılıb. Həm müşahidə sisteminin avadanlıq və proqram təminatı baxımından komponentləri, həm də səsvermə günü seçki məntəqələrindəki prosesləri canlı izləmək üçün nəzərdə tutulan internet səhifəsi tam şəkildə yenilənib.

Sözügedən veb-kameralar istər ölkə daxilində, istərsə də xaricdəki internet istifadəçilərinə səsvermə günü Mərkəzi Seçki Komissiyasının rəsmi internet səhifəsinə daxil olaraq, heç bir qeydiyyat tələb olunmadan, seçki məntəqəsindəki bütün prosesləri - səsvermə, səslərin sayılması və nəticələrin müəyyənləşdirilməsini fasiləsiz müşahidə etmək imkanı yaradacaq.

Artıq 6 milyon 524 min 203 seçki bülleteni MSK tərəfindən ünvanlarına çatdırılıb. Məntəqələr seçicilərini gözləyirlər.

Səsvermənin nəticələrindən asılı olmayaraq seçkinin bir qalibi var: Azərbaycan xalqı. Səsvermə hüququ olan Azərbaycan vətəndaşları fevralın 7-də zəfərin nəticəsi olan sülhə, sabitliyə səs verəcəklər.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 6 fevral, № 25.- S.5.